Azərbaycan Respublikası
Təhsil Nazirliyi

# Ödənişli əsaslarla təhsil alan bəzi kateqoriyalara aid olan tələbələrin təhsil haqlarının dövlət büdcəsinin vəsaiti hesabına ödənilməsi

- Dövlət və ya özəl ali təhsil müəssisəsinə ödənişli əsaslarla qəbul olunmuş tələbənin təhsil haqqının miqdarı və ödənilməsi şərtləri tələbə ilə ali təhsil müəssisəsi arasında bağlanılan müqavilə əsasında tənzimlənir.
- Qeyd olunan məsələlərə ali təhsil müəssisəsi ilə tələbə arasında bağlanılan müqavilənin şərtlərinə uyğun olaraq baxılmalıdır.

Azərbaycan Respublikası
Təhsil Nazirliyi

# Ali təhsil müəssisələrinə ödənişli əsaslarla qəbul olunan və təhsil haqqı dövlət büdcəsinin vəsaiti hesabına ödənilən tələbələr

- dövlət ali və orta ixtisas təhsili müəssisələrində təhsil alan məcburi köçkün və şəhid ailələrindən olan tələbələr;
- 18 yaşına qədər hər iki valideynini itirmiş, valideyn himayəsindən məhrum olmuş və ya onlara bərabər tutulan şəxslər (23 yaşınadək);
- 2014/2015-ci tədris ilindən başlayaraq Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və Konstitusiya quruluşunun müdafiəsi zamanı əlil olmuş və Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda həlak olan, hərbi əməliyyatla əlaqədar itkin düşən və məhkəmə tərəfindən ölmüş elan edilən vətəndaşların ali təhsil müəssisələrində təhsil alan övladları.

- Bu qəbildən olan tələbələrin təhsil haqqı müvafiq təsdiqedici sənədləri təhsil aldıqları ali təhsil müəssisələrinə təqdim etdikləri halda dövlət büdcəsinin vəsaiti hesabına ödənilir.
- Digər hallarda ödənişli əsaslarla təhsil alan tələbələr təhsil haqqını ödəməkdən azad olunmurlar.